Xalq qəzeti 2020.- 23 oktyabr.- S. 9

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 406** **Bakı şəhəri, 21 oktyabr 2020-ci il**

**"Bədən tərbiyəsi və idmanla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Onkoloji yardım haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Atçılıq haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 112-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1073; 2010, № 4, maddə 354; 2014, № 9, maddə 1137; 2016, № 9, maddə 1585; 2017, № 3, maddə 495, № 4, maddə 643) ilə təsdiq edilmiş "Dövlət bədən tərbiyəsi - idman təşkilatlarında bədən tərbiyəsi və idman xidmətləri güzəştli şərtlərlə göstərilən bəzi kateqoriyadan olan şəxslərin Siyahısı"nın ikinci hissəsinin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"müharibə ilə əlaqədar və Çernobıl AES-də qəza nəticəsində əlilliyi müəyyən edilmiş şəxslər;".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***